## Dövlət Statistika Komitəsində ümumimilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə anım mərasimi keçirilmişdir

Mayın 8-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Ümummilli Liderin xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov müasir Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü mühüm işlərdən bəhs etmiş, bu dahi şəxsiyyətin dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatımızın inkişafında əvəzsiz xidmətlərindən danışmışdır. Tədbirdə Dövlət Statistika Komitəsinin əməkdaşları Saleh Mövlamov, Arif İbişov, Nigar Nağıyeva və Sevda Süleymanova Ulu öndərin Vətənimiz üçün gördüyü işlərlə bağlı məruzələrlə çıxış etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkənin inkişafında böyük xidmətlərindən danışmışlar.



Sonda tədbirə yekun vuran Dövlət Statistika Komitəsinin sədri Arif Vəlivev öz çıxışında qeyd etmişdir ki, Ümummilli Lider bütün fəaliyyəti ilə xalqa xidmət etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür. Heydər Əliyev siyasi xəttinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi inkişafı davamlı xarakter almış, Azərbaycan sosial-iqtisadi inkişaf tempinə görə dünyanın qabaqcıl dövlətlərindən birinə çevrilmişdir.